# Ömürlük kədərin əbədi qüruru

**Tariximizdəki adı Aprel döyüşləri, zəfərimizdəki yeri isə ilk qələbə oldu. Uzun illərdən sonra qələbənin şirin dadını o zaman bildik. 2016-cı ilin aprelində... O vaxta qədər də Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan Ordusunun mövqelərini, mülki əhalinin yaşayış məntəqələrini intensiz artilleriya atəşinə tuturdu. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə isə 1994-cü il mayın 12-dən - atəşkəs haqqında saziş imzalandıqdan bəri ən şiddətli döyüşlər başladı...**

Azərbaycan Ordusu işğalçılara ölkəmizin hərbi gücünü göstərdi o döyüşlərdə... Hərbçilərimizin cəsurluğu, qorxmazlığı, igidliyi düşmənin bağrını yardı.

Azərbaycan Ordusunun qalibiyyəti ilə nəticələnən Aprel döyüşlərində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Madagiz kəndləri istiqamətində mövqelərimizin azadlığı geri qaytarıldı.

Biz düşməni heç zaman gözlərimizdə böyütməmişdik. Onların xislətinə, nələrə qadir olduqlarına yaxşı bələd idik. Aprel döyüşləri qəsbkarların özlərinin özləri barəsində uydurduqları mifi alt-üst etdi. Cinayətkar erməni rəhbərləri gördülər ki, qətiyyən erməni səngərləri keçilməz, Ermənistan silahlı qüvvələri isə məğlubedilməz deyil.

Aprel döyüşləri həm böyük zəfərin başlanğıcı oldu, həm də Böyük qayıdışın. Düşmənin xaraba qoyduğu Cocuq Mərcanlı kəndi çox keçmədi ki, Prezident İlham Əliyevin sərəncamı ilə yenidən quruldu. Azərbaycanın ayrı-ayrı yerlərində məcburi köçkün həyatı yaşayan cocuq mərcanlılılar 2017-ci ilin iyunundan bir gözlərində yaş, bir gözlərində sevinc dədə-baba yurdlarına dönməyə başladılar. Cocuq mərcanlılıların arzuları bu idi: "O gün olsun ki, bütün rayonlarımız alınsın, hamı evinə dönsün".

O zaman illərin ayrılığını adlayıb doğma kəndinə qayıtmağa hazırlaşan cocuq mərcanlılı Şahsənəm dedi: "Bu günü səbirsizliklə gözləyirdik. O yerlər üçün o qədər ağlamışam ki..." Şahsənəmin əhdi vardı. Deyirdi: "Mənim bir qardaşım - Həsənov Kamil Şəmil oğlu 1993-cü ildə, 23 yaşında Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olub. Bizim kəndin dədə-baba qəbiristanlığı Lələtəpədəydi. Qardaşımı da orda dəfn etdik. Ermənilər heç qəbrinin üstünü götürməyə də imkan vermədilər. Yurdumuzu işğal etdilər. Neçə illərdir əhdim var: ayaqyalın, sürünə-sürünə qardaşımın məzarını ziyarət edəcəyəm".

Şəhid bacısı danışırdı ki, Kamilin sevdiyi qız vardı: "Sevil ondan sonra ailə qurmadı, deyiklisinin şəhid olduğunu bilə-bilə hələ də yolunu gözləyir..."

Azərbaycan xalqı əmin idi ki, Qarabağ, Şərqi Zəngəzur bir gün qəsbkarların əsarətindən qurtulacaq. İşğal illərinin tez bitməsi, həsrətini çəkdiyimiz Vətən torpaqlarının azad olması arzularımız, amalımız idi. Azərbaycan xalqı böyük zəfərə təşnə idi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatlar törədərək münaqişəni alovlandırmaları səbəbindən başlayan Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu bizi addım-addım o qələbəyə doğru apardı. 44 günün içərisində nələr yaşamadıq... Həyəcan, təlaş, intizar, kədər, sevinc, bəxtiyarlıq...

Qarabağdan, Şərqi Zəngəzurdan gələn xəbərlərlə qürurlanırdıq, köksümüz dağa dönürdü. Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə döyüş meydanında ağır zərbələr endirirdi. Döyüşçülərimiz kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz uğrunda ölüm-dirim savaşına girmişdilər. Düşmənin silahlı qüvvələri vuruşur, gücü yetməyəndə isə qaçırdı.

Azərbaycan xalqı məğlubiyyətlə yaşamışdı, ancaq onunla barışmamışdı. Otuz ilə yaxın Qarabağın və Şərqi Zəngəzurun əsarətdən qurtulacağına, düşmənin məğlub olacağına ümid etmişdik, o günləri arzulamışdıq, xəyallar qurmuşduq. 2020-ci ilin payızında qəhrəman Azərbaycan Ordusu arzularımızı çin etdi, ümidlərimizi gerçəkləşdirdi. Azərbaycanın Qarabağını, Şərqi Zəngəzurunu o igidlər canları, qanları bahasına azad etdilər.

2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. Ancaq Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etməkdən boyun qaçırdı. İşğalçılar Azərbaycan torpaqlarından gözlərini çəkmədilər. Cinayətkar Ermənistan rəhbərliyi və onların Qarabağda himayə etdikləri, silahlandırdıqları separatçılar Azərbaycan dövlətinin işğaldan azad etdiyi ərazilərində həyata keçirdiyi tikinti, quruculuq işlərinə hər vəchlə mane olmağa çalışdılar. Təxribatlar, mina terroru törətməkdə davam etdilər.

Azərbaycan Qarabağda suverenliyini tam bərpa etmək, Ermənistan silahlı qüvvələri birləşmələrinin və separatçıların cinayətkar əməllərinə son qoymaq üçün 2023-cü il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirləri başladı. 23 saat davam edən antiterror tədbirləri rəşadətli Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı.

Qürurumuz, şərəfimiz olan Vətən torpaqlarını bizə qaytaran, bizi qalib xalq edən qəhrəmanlarımızın hər birinin arzusu düşməni tamamilə məğlub etmək idi. O günü görənlər də oldu, şəhadət zirvəzindən seyr edənlər də...

Onların əksəriyyəti gənc idi. Balasının dilindən hələ "ata" kəlməsini eşitməyənlər də vardı, övlad yolu gözləyənlər də. Elələri vardı ki, toyunun səsi qulaqlardan getməmişdi. Elələri də vardı ki, sevdiyi qız yolunu gözləyirdi. Cocuq mərcanlılı Kamilin Sevili kimi...

Onlar Vətənə yalnız canlarını qurban vermədilər. Şəhid xəbərləri ilə ata-analarının, bacı-qardaşlarının, övladlarının, həyat yoldaşlarının, ya da sevdikləri qızların dünyalarına ömürlük kədər, qüssə çökdü. Ancaq dərdləri qədər qürurları da böyük oldu. Şəhidlərimiz doğma xalqın qəlbində əbədi yer tapdılar. O xalqın ki igidləri çiyinlərindən məğlubiyyət yükünü götürdülər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 29 sentyabr.- S.11.